Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Söz xəzinədarı Əlisa Nicat

**Əlisa Nicat 80-illik yubileyi münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2016**

**Tərtibçi:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
Əməkdar mədəniyyət işçisi

**Söz xəzinədarı Əlisa Nicat:** metodik vəsait/tərt.ed.A. Əliyeva; ix. red. və burax. məsul Qəmbərova Ş.; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 25s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016.**

# Tərtibçidən



Elə sənətkarlar olur ki, bir zaman büllur ayna kimi parlamış əsərləri zaman keçdikcə əvvəlki parlaqlığını itirir, zaman onların üstünü örtür. Lakin bəzi yazarlar da vardır ki, illər, qərinələr, əsrlər keçsə belə həmişəyaşar olaraq qəlbimizə həkk olunur... Dahilər haqqında ürək sözü söyləmək həm çətin, həm də məsuliyyətlidir. Xüsusən biləndə ki, deyəcəyin söz bir böyük insan, istedadlı bir şair, yazıçı haqqındadır, həyəcanın daha da artır. Belə sənət, söz ustadlarından biri də Əlisa Nicatdır. Əlisa Nicat istedadlı yazıçı olmaqla yanaşı, həm də görkəmli şəxsiyyət, ziyalı qələm əhlidir. Ziyalı timsalında el özünün zehni, mənəvi varlığının gerçəkliyini, öz ideallarının carçısını görür. Əsl ziyalılara həmişə ehtiram, qayğı bəsləyir, onlara güvənir. Müasir dünyada öz milli mövqeyini dərk etməkdə onlara hərəkətverici qüvvə kimi baxır. Ziyalı adını ləyaqətlə daşıyanlar isə elin etibarını, ümidini doğrultmağı müqəddəs borc sayırlar. Bizim isə ən şərəfli borclarımızdzn biri də müasir ədbiyyatımızın incilərindən sayılan görkəmli yazıçı, filosof, publisist və tarixçi Əlisa Nicatın 80 illik yubileyi münasibəti ilə vəsait işləməkdir. Böyük fəxarət hissi ilə yazdığımız bu vəsait iki hissədən ibarətdir. I hissə *"Mən dünyadan xəbərdaram, dünya məndən xəbərsiz"* adlanır və Ə.Nicatın həyat və yaradıcılığından bəhs edir. II hissədə isə Ə.Nicatın yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

# Söz xəzinədarı Əlisa Nicat

## Həyat və yaradıcılığı

Əlisa Nicat 1936-cı il avqustun 10-da Lerik rayonunun Zuvand mahalının Yuxarı Gədik kəndində doğulub. 1955-ci ildə Lənkəran şəhərinin 3 saylı orta məktəbini bitirib. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaşünaslıq şöbəsinə daxil olub, 1963-cü ildə oranı tamamlayıb. 1955-ci ildə "Ədəbiyyat və incəsənət", "Bircə söz" adlı ilk şeiri çap olunub. 1959-cu ildə yazmağa başladığı "Qızılbaşlar" romanını dövrün yaratdığı əngəllər ucbatından yalnız 1983-cü ildə "Yazıçı" nəşriyyatında çap etdirə bilib. 1961-ci ildə "Gecəniz xeyrə qalsın, ulduzlar" adlı ilk hekayəsi, 1964-də ilk şeirlər kitabı olan "Yay axşamı", 1970-ci ildə isə "Bir qız, üç çinar" adlı ilk hekayələr kitabı nəşr edilib. 1967-1969-cu illərdə Azərbaycan radiosunun "Gənclik" və "İncəsənət" redaksiyalarında, ardınca "Ekran" telefilm birliyində fəaliyyət göstərib. 1973-1983-cü illərdə "Elm və həyat" jurnalında redaktor və şöbə müdiri vəzifəsində çalışıb. 1983-1990-cı illərdə Lənkəranda yaşayıb və bu dövrdə "Zərdüşt", "Əsarət bayramı", "Gərəksiz" povestlərini qələmə alıb, Plutarxın "Makedoniyalı İskəndər" (1982), Məhəmməd Tahirin "Şeyx Şamil" (1983) kitablarını tərcümə edib. 1987-ci ildə povest və hekayələrin toplandığı "Qəbilə başçısı" kitabı, 1990-cı ildə "Gəncəli müdrik" romanı çap edilib. SSRİ-nin süqutundan və müstəqilliyn əldə edilməsindən sonra 1993-1994-cü illərdə "Turan" jurnalını nəşr etdirib. Müstəqillik dövründə "Nağıllara dönən tarix" (1993), "Ruhların söhbəti" (1994), "Dünya sərkərdələri" (1995), "Dünya filosofları" (1995), "Kədər şərabı" (1997), "Dünya tarixçiləri" (1998),

“Yüz böyük Azərbaycanlı” (1999), “Karvan” (2000), “Tarixin qürubu” (2009) kitabları çap edilib. Bununla yanaşı Ə.Nicat “Sasanilərin sonu”, “Ehramlar”, “Sarsılmaz Mir Cəfər”, “Mələklər və İblislər”, “Rza xan”, “Qızılbaşlar”, “Fenomen”, “Satrap və demokrat”, “Artakserks və Midya türkləri”, “Əsrin mənzərəsi”, “Gilan”, “Şirvan”, “Təbriz”, “Çaldıran”, “100 böyük azərbaycanlı”, “Sirli xəzinə” əsərlərinin müəllifidir. Qocaman fəlsəfə doktorunun bütün külliyyatı 50 cilddən ibarətdir. Bundan başqa saysız tərcümələr, şeirlər, esselər, povestləri var. Eyni zamanda bu dövr ərzində ölkənin tanınmış mətbu orqanlarında çalışıb. 1999-cu il aprelin 28-də AMEA-nın Bəhmənyar adına Fəlsəfə və Hüquq institutunun elmi şurasının qərarı ilə Əlisa Nicata səmərəli elmi və elmi-maarif fəaliyyətinə görə fəlsəfə elmləri üzrə fəxri doktor adı verilib.1999-cu il aprelin 28-də AMEA-nın Bəhmənyar adına Fəlsəfə və Hüquq institutunun elmi şurasının qərarı ilə Əlisa Nicata səmərəli elmi və elmi-maarif fəaliyyətinə görə Fəlsəfə elmləri üzrə Fəxri Doktor adı verilir.

Dəyərli yazar Əlisa Nicatın 80 illik yubileyi ilə əlaqədar kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər. Bunlardan “Mən dünyadan xəbərdaram, dünya məndən xəbərsiz”, Əlisa Nicatın “Nəğməyə dönmüş ömür”, “Fenomeni yalnız həqiqətə söykənən şair”, “Nağıllara dönən tarix”, “Sovet dönəminin türkçüsü”,“Tarixin sübh çağı”, “Böyük sözün və fikrin vəhdəti”, “Tarixin daş yaddaşını oyadan şair-Əlisa Nicat”, “İşim, gücüm düşünməkdir”, “Dağların bəmbəyaz qarı, dənizlərin ləngəriyəm”, “Müdriklik məbədinin memarı”, “Hələ işığıma gələn pərvanələr qabaqdadır” və s. misal göstərmək olar. Bununla yanaşı şairin müxtəlif illərdə çəkilmiş foto

stendi, Əlisa Nicatın kitabları sərgidə öz yerini alır. Şairin öz əsərləri ilə yanaşı, müxtəlif ədiblərin şair haqqında yazdığı materiallar da sərgidə nümayiş olunur. Görkəmli insanların şair haqqında söylədikləri kəlamlar və şeir parçaları da sərgidə verilir.




































***Görkəmli şəxsiyyətlərin şair haqqında söylədikləri fikirlər:***

Əlisa Nicat imzasına sayğının arxasında yaradıcılıq fitrəti ilə bahəm şəxsiyyət amilinin dayandığı şübhə doğurmur.Bir yazıçı kimi onun özünəməxsusluğunu, bənzərsizliyini şərtləndirən əsas cəhət fikir tarixinə dərindən bələd olması, sənət adına yaradılanları ruhən mənimsəməsi, sözü görməsi, duyması, dərk etməsidir.

“Tarixin qürubu”- müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri olan Əlisa Nicatın zəngin və çoxşahəli yaradıcılığının yeni bir səhifəsidir.

**Vaqif Sultanlı,**
*Professor*

Kodu özünə də məlum olmayan qüvvə vasitəsilə Əlisa müəllim hələ yeniyetmə, gənclik illərindən bir sıra görkəmli şəxsiyyətlərin, klassiklərin yaradıcılıq aləminə daxil olmuş, dünya incilərini əxz etmişdir.

O, bəşər tarixində əhəmiyyətli iz qoymuş zəka sahiblərini o qədər yaxından bilir ki, istər-istəməz məəttəl qalırsan.

**Əbülhəsən Abbasov**
*Professor*

Kitabxanada Əlisa Nicatın kitablarından ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərginin ətrafında oxucularla söhbət keçirir. Söhbət zamanı yazıçının özü və kitabları haqqında məlumat verir, kitabların anotasiyaları oxuculara ətraflı çatdırılır.

**Kitabxanaçı:** Müasir Azərbaycan nəsrinin sevilən imzalarından biri-Əlisa Nicat haqqında danışmaq bədii sözün sirlərinə bələdlik və zehni intelektuallıq tələb edir. Ədəbiyyatımıza bir sıra dəyərli romanlar və povestlər, çoxlu sayda hekayə, pritça və esselər bəxş etmiş yazıçının bədii dünyası zənginliyi və təkrarsızlığı ilə diqqəti çəkib. Onun əsərlərində hər şey canlı təsir bağışlayır, inandırıcı görünür, insanı sehrinə salır, ovsunlayır. Sözün dəyərini və çəkisini bildiyi üçün o, gərəksiz yerə yazmır, yazdıqlarının arxasında bəlli bir məram və niyyət durur. Bütün zamanlarda, istisnasız olaraq, yazıçının bədii qüdrəti ilə yanaşı, onun şəxsiyyəti, kimliyi, mövqeyi maraq doğurub, mübahisə obyektinə çevrilib. İnanırıq ki, daima, qərinələr ötsə belə onun əsərləri geniş oxucu kütləsinin diqqət və marağını çəkəcək, dəyişən, yeniləşən zamanla birlikdə təzəliyini, təravətini qoruyub saxlayacaqdır...
*"Bir qız, üç çinar"* görkəmli yazıçı Əlisa Nicatın ilk əsərlərindən biridir. Kitabda toplanmış hekayələr gənclərin həyatda, cəmiyyətdə öz yerini, sevgisini, səadətini axtarmasından, bu axtarışdakı sevinc və qayğılardan bəhs edir. Müəllif yüksək insani keyfiyyətləri, vətən, sədaqət, məhəbbət duyğularını özünəməxsus poetik dildə tərənnüm edir...

Əlisa Nicatın *"Qırmızı buludlar"* kitabındakı hekayələrin əksəriyyəti insanla təbiətin münasibətinə həsr olunmuşdur. Müəllif təbiətin vurğunudur. Bu heykayələrdə təbiət insan həyatının ayrılmaz bir parçası kimi təsvir olunur. Kitabda böyük şair Mirzə Şəfi Vazehə və dahi bəstəkar Üzeyur Hacıbəyova həsr olunmuş novellalar incə, poetik hislərlə zəngindir. "Monoloq" adlı kiçik povestdə həyatda, sənətdə öz yerini tutmaq istəyən gənc aktyorun arzu və düşüncələri nəql

olunur. Povestin hər səhifəsinə qəhrəmanın uşaqlıq xatirələri bol-bol səpələnir...

Tanınmış yazıçının maraqlı kitablarından biri də "Qəbilə başçısı"dır. Kitaba daxil edilmiş əsərlərdə həm keçmişdən, həm də bu gündən bəhs olunur. Bu əsərlərin qəhrəmanları müxtəlif dövrlərdə yaşasalar da, onları birləşdirən, doğmalaşdıran hiss eynidir - vətənpərvərlik. Ulu Zərdüş də ("Zərdüş"), XX əsr mədəniyyətimizin korifeyi Ü.Hacıbəyov da ("İşıq saçan insan"), "Döngəli gün" hekayəsindən tanış olacağınız Altay da öz yüksək mənəvi keyfiyyətləri ilə seçilən və bu gözəlliyi nəsildən-nəslə ötürən qəhrəmanlardır...

Əlisa Nicatın *"Nəğməyə dönmüş ömür"* kitabı Azərbaycanın XIX əsr şair –filosofu Mirzə Şəfi Vazehin gənclik illərindən bəhs edir. Romanda Gəncə məscidinin hücrələrində yaşayıb, dövlətli balalarına dərs deməklə güzəran keçirən böyük şairin acı taleyi, onun mürtəce din xadimləri ilə ciddi mübahisələri, Gəncə feodalı İbrahim xanın qızı ilə uğursuz sevgisi şairanə dillə qələmə alınmışdır. Kitabda həmçinin müəllifin "Ölməzlik" silsiləsindən dörd hekayəsi verilmişdir. Bu hekayələrdə dahi bəstəkarımız Üzeyir Hacıbəyovun yaradıcılıq axtarışlarından, uğurlarından maraqlı, bədii lövhələrlə söhbət açılır...

Görkəmli yazıçı Əlisa Nicatın *"Mirzə Şəfi"* romanı böyük Azərbaycan şairi Mirzə Şəfi Vazeh haqqında bioqrafik əsərdir. Roman "sənətkar və zaman" konsepsiyasının bir növ bədii ifadəsi təsiri bağışlayır. Bu mənada Mirzə Şəfi obrazı nə qədər konkret olsa da, fakt və sənədlərə əsaslansa da, müəyyən dərəcədə ümumiləşmiş, fəlsəfi sənətkar obrazıdır. Bu gün həyat eşqi ilə dolu Mirzə Şəfi nəğmələri şairin əsərdə təsvir olunan acı günlərinin sanki nurlu bəhrələridir. Mirzə Şəfinin də adını

ölməz edən onun uğursuz sevgisi, sevgisiz, fərəhsiz günləri deyil, onların bəhrəsi ilə həmin nəğmələrdir. Əlisa Nicat şairin amansız qaranlıq dövrünü, istər bu qaranlıqda işıq saçan, istərsə də, onu daha da qatılaşdıran tanıdığımız və tanımadığımız adamları real, təbii şəkildə təsvir edir...

"Nəğməyə dönmüş ömür" əsəri və bir sıra hekayələri ilə oxucuların rəğbətini qazanmış yazıçı Əlisa Nicatın *"Qızılbaşlar"* romanında məhşur sərkərdə, gözəl şair Şah İmayıl Xətainin və onun silahdaşlarının Səfəvilər dövlətini yaratmaq uğrunda apardığı ağır, gərgin, eyni zamanda qəhrəmanlıqla dolu mübarizənin epik-lirik mənzərəsi canlandırılır. Bu roman Azərbaycan ədəbiyyatında Böyük Xətai haqqında yazılmış ilk bədii əsərdir. Əsər 1959-1963 illərdə yazılmış, yalnız 1982-cü ildə nəşr olunmuşdur. Romanda Hüseyn bəy Lələ, Xülafə və Məhəmməd bəy Ustaclılar, Piri bəy Qacar, Əmirxan Mosullu, həmçinin türk sultanı I Səlimin, bir çox adi döyüşçü və əsgərlərin realist, koloritli surətləri yaradılmışdır...

*"Gəncəli müdrik"* romanı görkəmli Azərbaycan şairi və filosofu Mirzə Şəfi Vazehin həyat və mübarizəsindən bəhs edir. Müəllif bədii ifadə vasitələri ilə şairin həyatının əsas mərhələlərini göstərməyə, tarixi sənədli faktları təsvir olunan hadisə və xarakterlərin aparıcı bədii ideyasına çevirməyə çalışmışdır... Görkəmli yazıçı və filosof Əlisa Nicatın *"Bülbül və gül"* povesti onun yaradıcılığında tamamilə yeni və orijinal bir səhifədir. Müəllif öz gənc qəhrəmanlarının bir günlük sevgi macəralarını təsvir etməklə məhəbbətə əbədi və kosmik bir hadisə kimi baxır. Kitabda Azərbaycanın tanınmış yazıçı-filosofu Əlisa Nicatın son dövrlərdə yazdığı hekayələri, şeirləri və oxucuların uzun müddət gözlədiyi "Məhəmməd və Rza

pritçaları", habelə fəlsəfi dialoqları və publisistik yazılarının bir hissəsi toplanmışdır... Ümid edirik ki, oxucuların yaddaşında indiyə qədər maraqlı tarixi roman və hekayələri ilə qalan, sevilən yazıçı-filosofumuzun hazırkı *"Tiranlar və kölələr"* kitabı da, oxucular tərəfindən əvvəlki kitabları kimi böyük rəğbətlə qarşılanacaqdır...

Məşhur şair, yazıçı, filosof, tərcüməçi, fəxri fəlsəfə doktoru Əlisa Nicatın indiyə kimi yalnız qəzetlərdə çap olunan əsərlərinin toplusu olan *"Tarixin Qürubu"* adlı kitab böyük sənətkarın əlli illik yaradıcılığının yeni hesabatıdır. İstər respublikamızın, istərsə də qloballaşan dünyanın, ümumiyyətlə həyatın, varlığın, təbiətin elə bir məsələsi yoxdur ki, oxucu bu kitabda ona müəllifin özünəməxsus izahını tapa bilməsin. Kitabda zəngin dünyagörüşü, varlığa fəlsəfi baxış kiçik detallardan, hadisələrdən tutmuş kainat miqyaslı problemlərə qədər öz orijinal əksini tapmışdır...

Görkəmli sənətkar Əlisa Nicatın əsərlərinin I cildini təşkil edən *"Əlisa Nicat əsərləri"* adlı kitabı ədəbiyyatımızın poeziya səhifəsinin heç şübhəsiz ki, incilərindəndir. Poeziya tariximizdə tamamilə yeni hadisə olan bu lirika və satira yeni üslub, ifadə tərzi, yeni obrazlığı ilə seçilərək dövrümüzün, müasirlərimizin həyatını və davranış tərzini əks etdiyi kimi müəllifin böyük dünyasının-mənəvi ruhi aləminin parlaq, bədii güzgüsüdür. Sarsılmaz və mətin şair, yazıçı, publisist və filosofun poeziya yaradıcılığı həm texniki intibah dövrünü yaşayan dünyamıza ittiham hökmü, həm də böyük, gözəl və köməksiz təbiətə pərəstişlərin ifadəsidir...

Tariximizin qaranlıq səhifələrindən biri də indiyə kimi tam araşdırılmamış Mir Cəfər Bağırovun həyatı və fəaliyyəti ilə bağlıdır. M.Bağırovun həyatı müxtəlif istiqamətlərdə müxtəlif

dünyagörüşlü insanlar tərəfindən araşdırılsa da, cəmiyyətdə hələ də öz real qiymətini almamışdır. Yazıçı-publisist, filosov Əlisa Nicat *"Sarsılmaz Mir Cəfər"* romanında M.Bağırovun həyat və fəaliyyətinin aşkar və gizlin məqamlarını oxuculara çatdırmağa çalışmasıdır. Roman geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Kitabda yer alan "Mələklər və İblislər" romanının gərgin dramatik hadisələri qəfildən qırıldığına görə istər-istəməz öz ardını tələb edirdi. Müəyyən materiallar əldə etdikdən sonra müəllif sanki romanın II cildini, əslində isə tamamilə orjinal formalı və məzmunlu yeni romanı qələmə aldı. Roman bütövlükdə 20 ildən artıq Azərbaycanın şəriksiz rəhbəri olmuş Mir Cəfər Bağırovun sanki bir günlük həyatını əks etdirir... Görkəmli sənətkar Əlisa Nicatın *"Leytenant rütbəsində general"* kitabında Lənkəran hərbi dairəsində 45 ildən çox praporik (gizir) işləyən və nəinki Azərbaycan Zaqafqaziya ordu hissələrində, hətta SSRİ-nin miqyasında "general" kimi tanınıb nüfuz qazananan Məmmədağa Şirməmmədovun həyat yolundan bəhs edilir. Kitabda bu qeyri–adi şəxsiyyətin həyatının müxtəlif epizodları yığcam bədii lövhələrlə nəql edilir. Əsərin müəllifi şöhrətli yazıçı və fiosof Əlisa Nicat böyük bədii səxavətlə Məmmədağa Şirməmmədovun oğul və qızlarının öz şanlı atalarına nece layiq olduqlarını parlaq poeziya nümunələri ilə təsvir edir. Kitab öz janrına görə təzə, orjinal bir sənət nümunəsi olmaqla heç şübhəsiz ki, bu ləyaqətli insanın xatirəsinin ölməzliyinə xidmət edəcəkdir...

Yazıçı, filosof publisist və tarixçi Əlisa Nicatın seçilmiş əsərlərinin IV cildində toplanmış əsərlər bütün bu yaradıcılıq xüsusiyyətlərinin sintezidir. Bu əsərlərdə qorxunc DTK-nın hökmranlıq etdiyi rejimin dəhşətli həyat səhnələri, İran

xalqlarınının, xüsusilə Cənubu Azərbaycan xalqınının milli hüquqlarının büsbütün tapdalanmasının əsasını qoyan Mazandaranlı kazarma mehtərinin hakimiyyət zirvəsinə dırmaşması tarixi, uzaq türk cəngavəri Quliçurun epopeyası və nəhayət Quzey Azərbaycanın bu günkü acınacaqlı vəziyyətinin salnaməsi açıqlanır...

Yazıçı, filosof publisist və tarixçi Əlisa Nicatın 80-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də "*Yazıçı ilə görüş"*dür. Bu görüş oxucular arasında mütaliyəyə olan marağı artırmaq və onlarda oxu vərdişi yaratmaq xüsusiyyəti daşıyır. Tədbirdə Əlisa Nicat şəxsən özü, ümumiyyətlə kitab sevərlər toplaşaraq iştirak edirlər. İlk öncə kitabxanaçı oxucuları salamlayaraq gəldikləri üçün hər kəsə təşəkkür etdikdən sonra, Əlisa Nicat haqqında qısa məlumat verir. Daha sonra oxucular ədibə növbə ilə suallar verməyə başlayırlar.

**Sual:** 80 illik ömür yolunu özlüyünüzdə necə təhlil edirsiniz?

**Cavab:** Keçdiyim ömür yoluna nəzər salanda nələr yada düşər, hansı hadisələr, hislər və məqamlar unudulmaz olub? Hardasa xatirələrimin dərinliyindən də birdən keçirdiyim elə hislər yada düşür ki, özüm də təəccüb edirəm. Məsələn, yadıma düşür ki, böyüyüb boya-başa çatdığım Lənkəranda 12-13 yaşlarında Qələdən (yəni şəhərin dənizkənarı hissəsindən) evə gələrkən, yenicə gül açan ağacları görəndə elə bil ki, ilk dəfə hiss etdim ki, mən də bu dünyada varam və eyni zamanda qarşıda uzun bir ömrün sahibi olduğumu da elə bil ilk dəfə duydum.

**Sual:** Bəs necə oldu ki, sənətə bağlı oldunuz?

**Cavab:** Yazmaq zəruriyyəti necə meydana çıxdı, yadımda deyil. Əlbəttə, demək olar ki, ikinci sinifdən kitab oxuyurdum. Axı o vaxt bizdə böyük qardaşım da kitab oxuyurdu və gecələr

oxuduqlarını bizə, kiçik qardaşlarina danışardı. Ancaq mən başqa qardaşlarımdan fərqli olaraq heyranlıqla qulaq asardım. Nəinki qulaq asar, mən əsərlə, onun qəhrəmanları ilə yaşayardım. Yazmağa gec, 15-16 yaşlarında başlamışam. Amma bununla da necə deyərlər hazırlıq mərhələsi dərin, bünövrə çox əsaslı olub. O dövrə kimi Azərbaycan dilində nəşr olunmuş kitabların demək olar ki, hamısını, özü də bir dəfə yox, bir neçə dəfə oxumuşam. Bu səbəbdən yazmağa başlayanda yazılar elə bil sel kimi axıb gəlirdi. Kitabıma isə 1960-cı ildən ildən sonra yazdıqlarımı daxil etmişəm.
**Sual:** Bu peşə həyatınnıza necə iz buraxdı?
**Cavab:** Əlbətdə sənət nöqteyi-nəzərindən ömrümü uğurlu hesab edirəm.
**Sual:** Şeir və ya nəsr-hansı sizin üçün daha önəmlidir? Azərbaycan ədəbiyyatında adətən şeirdən nəsrə keçmə müşahidə olunur. Bu məsələdə siz də istisna deyilsiniz. Nəsrə keçməyinizə peşman deyilsiniz ki?
**Cavab:** Mən şeiri də, nəsri də demək olar ki, eyni vaxta yazmağa başlamışam. Amma əvvəl nəsr mənim üçün çətin başa gəlirdi. Alınmırdı. İlk uğurlu nəsr əsərim 1959-cu ildə başlayıb, bir-iki ilə bitirdiyim "Qızılbaşlar" romanıdır. İlk bəyəndiyim hekayələrimi isə daha sonralar, 1954-65-ci illərdə yazmışam. Yeri gəlmişkən, "Gecəniz xeyrə qalsın, ulduzlar" adlı ilk hekayəm "Ədəbiyyat və incəsənət" qəzetində çap olunub. Qeyd etdiyim kimi əvvəllər nəsr yazmaq mənə çətin idi, indi isə şeir çətinləşdi, lakin heç zaman heç birindən ayrılmamışam. Amma özümü daha çox nasir hiss edirəm. O şeyi ki, nəsrlə deyə bilmirsən, ele bil özü-özünə qafiyələşib şeirə dönür və ya əksinə.
**Sual:** Şeir və nəsri necə təsvir edərdiniz?

**Cavab:** Şeir daha çıx şıltaqlıq, qəzəb və inciklikdir, nəsr isə necə deyərlər daha dərin yaşantıları verir. Hər iki janr gözəldir. Amma şeir daha qədim olduğu üçün bir janr kimi daha çox cilalanıb.
**Sual:** Tarixi romanlara xüsusi maraq göstərməyiniz nə ilə bağlıdır?
**Cavab:** Tarixi janr hələ gəncliyimdə hədsiz patriotik hissələrlə dolu olduğuna görə məni cəzb etdi. Yazı prosesində hiss etdim ki, öz dissident ruhumu tarixi əsərlərdə asanlıqla ifadə edə bilirəm. Xüsusi ilə qədim Midiya dövründən bəhs edən bir çox hekayələrimdən imperiya zülmünü o ki var qamçılamışam.
**Sual:** "Qızılbaşlar"dan sonra hansı əsəri yazdınız?
**Cavab:** "Qızılbaşlar" yazılandan düz 20 il sonra Mirzə Şəfi Vazehin həyatından bəhs edən "Gəncəli müdrik" romanı daha on il sonra kitab şəklində çapdan çıxdı. İkinci romanda özümü, dünyagörüşümü, mühitlə sənət və sənətkar konfliktlərini daha əsaslı şəkildə əks etməyə çalışmışam. Ümumiyyətlə, mənim kimi güclü fərdiyyətçi, volyuntarist ruhlu yazıçılar üçün tarixi janr daha münasibdir.
**Sual:** Hazırda işlədiyiniz janr hansıdır?
**Cavab:** Hal-hazırda ən çox sevdiyim və işlədiyim janr pritça janrıdır və bu cəhətdən Frans Kafkaya çox minnətdaram.
Görkəmli yazar Əlisa Nicatın 80-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ədəbi bədii gecədir. *"Azadlığın pərvanəsi, Həqiqətin əsgəriyəm"* adlı ədəbi bədii gecə bilavasitə görkəmli ədib Əlisa Nicatın oz iştirakı ilə keçirilir. Bununla yanaşı Azərbaycanın görkəmli ədib və yazarları;sənət-söz adamları, oxucular, məktəblilər və ümumilikdə Əlisa Nicatsevərlər toplaşır. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış

çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Ədəbi-bədii gecəyə keçid almaq üçün aparıcılar səhnəyə yaxınlaşır.

**I aparıcı:** Gec də olsa alışdım
Bu səhnənin sirrinə
Milyon-milyon aktyor
Qarışıb bir-birinə…
Tamaşaçı tək mənəm

**II aparıcı:** Salam, dəyərli qonaqlar, Əlisa Nicat sevərlər, şeirə-sözə vurğun oxucular, bu gözəl şeirli tədbirə xoş gəlmisiniz. Bu gün hamımız Əlisa Nicatın 80-illik yubileyi münasibətilə buraya yığışmışıq. Onun keçdiyi yarpaq-yarpaq şeir dolu, söz dolu ömür yoluna işıq salmaq üçün şairin bu söz dolu, misra dolu, gecəsinə, nəzmli-nəsrli dünyasına toplanmışıq. Onun nəğməli sədasına. Şair əks-sədadır. O, həyatın bütün səslərinə, bütün çağırışlarına cavab verməlidir. Əlisa Nicat əsl yazardır. O, ahəngini Azərbaycanın dahi şairlərinin ahəngindən götürmüş bir şairdir.

**I aparıcı:** Əlisa Nicat bizim XX əsr ədəbiyyatımızda bir məktəbdir. Amma bu məktəbin özünün də məxsus olduğu daha böyük müqəddəs məktəbi var. Bu, bəxtsiz şairimiz Məhəmməd Hadi ilə başlanan vətənçi, milli poeziya məktəbimizdir. Birinci Rus inqilabı bizə mətbuat azadlığı verdi. Bu azadlığın bitirdiyi zərif çiçəklərdən biri Azərbaycan xalqının oyanan milli şüuru idi.

**II aparıcı:** Əlisa Nicat elə sənətkarlardandır ki, onların həyat yolu yaradıcılıq yolu qədər, yaradıcılıq yolu isə həyat yolu qədər maraqlı və zəngin olur. Yazıçı, filosof publisist, tarixçi, şair, içtimai xadim, azadlıq təşnəsi kimi müxtəlif adlar

qazanmış, vətəndaşlıq mövqeyi və özünəməxsus poetik dünyası ilə seçilən ana vətəninin ürəyində doğulmuş, diləyində həmişə azadlıq bəsləmiş və bu yolda qılıncını ovxarlı saxlayan qüdrətli söz ustasıdır. O, yorulmaz mübarız, gələcəyə nəzər salan arzular yazarıdır.

**I aparıcı:** O, Azərbaycan yaşadıqca heç bir zaman qüruba enməyəcək bir dahidir. O, gəncliyimizin sevimli tarixi romançısı, cavanlığımızın publisisti, şairi, müdriklik çağımızın isə filosofudur. Tarixin hər bir dönəmi üçün onun yaradıcılığı, düşüncələri aktualdır. O, Azərbaycan fəlsəfə tarixinin parlaq bir günəşidir. Ən əsası o, hər bir oxucuya xitab etməyi bacaran Əlisa Nicatdır.

**II aparıcı:** Əlisa Nicat mətbuata verdiyi müsahibələrinin birində qorxunc sovet dönəmində türkçülüklə bağlı araşdırmalar aparmasının səbəblərini belə izah edir: "Mən türkçü olmaqla türkdilli xalqların tarixinə edilən haqsızlıqlara etirazımı ifadə edirdim. Türkçülüyüm sosializmə, ideoloji köləliyə olan etiraz idi". Əlisa Nicat Azərbaycan tarixində türk-şumer əlaqələrini üzə çıxaran, atalarımız iskitlərin, hunların yaşam tərzini bizə anladan, dünyanın şölələnən mərkəzi olan Midiyanın ənənəvi sovet tarixşünaslığından fərqli olaraq Azərbaycan-türk dövləti olduğunu sübut edən, Zərdüştün bu torpaqlarda yaşamasını isbatlayan ilk tədqiqatçılardan olub.

**I aparıcı:** Türk-şumer qohumluğuna dair ilk tədqiqatçılardan olan Əlisa Nicatın bu sözü acı həqiqətdən xəbər verir: "Ax... Əgər bu saysız hesabsız Şumer dil kitabələrində bircə dənə slavyan sözü, sanskrit sözü, yunan sözü, heç olmasa hər hansı bir qondarma Hind-Avropa sözü tapılsaydı, heç olmasa onlara bənzəyən bir söz tapılsaydı. Ax, ax.. O zaman gör, dünyanın böyük-böyük şəhərlərində neçə-neçə şumerşünaslıq

mükafatları təsis olunardı. Hər il şumerə aid dünya dillərində yüzlərlə kitab nəşr edilərdi”.

**II aparıcı:** Yazıçı haqlı idi, çünki şumer-türk əlaqələrinə dair yetərincə bilgilər olduğu halda türk tarixşünaslığında tədqiqatlar həddindən artıq azdır. Amma Əlisa Nicat Sovet dönəmində tarix tabularını sındıraraq bu sahədə məqalələr hazırladı. Bu tədqiqatlara kifayət qədər yazılar daxildir. Sərkərdəsi krallar olan Atillanı, Romanın varlığına son qoyan hun Odoakrı onun sayəsində tanıdıq. Məhz onun tərcüməsində Atillanı öz gözləri ilə görmüş Bizans elçisi Paniyalı Priskin “Xatirələr”ini oxuduq. Və yenə də oxuyacağıq. Hazırda əsərlərinin toplandığı 26 cildlik külliyyatın 18-ci cildi məhz türkçülüklə bağlı yazıları əhatə edəcəkdir.

**I aparıcı:** “Əlisa Nicatın ən dəyərli yönü də məhz budur. Onun roman və povestlərinin qəhrəmanları Şah İsmayıl, Mirzə Şəfi Vazeh, Zərdüşt, hekayələrinin qəhrəmanları Atilla, Tomris, Mete, Qam Ata, Astiaq idi. Son dönəmlər yazmış olduğu “Sasanilərin sonu”, “Ehramlar”, “Sarsılmaz Mir Cəfər”, “Mələklər və İblislər”, “Rza xan”, “Artakserks və bitlisiləşmiş türklər” əsərləri onun şedevrləridir. Ən əsası Əlisa Nicat Azərbaycan ədəbiyyatında pritça janrının ustadıdır.

**II aparıcı:** Əlisa Nicat müdriklik məbədinin memarı sayılır. Yazıçının ayrı-ayrı kitablarında və dövri mətbuatdakı çıxışları fəlsəfi ədəbiyyatla kifayət qədər ciddi məşğul olduğu görünür. Bu haqda yazıçı belə demişdir: “Fəlsəfə bir elm kimi poeziya qədər qədimdir və bəlkə də, dünyanın ilk elmlərindən biridir. Bu sahədə bəşər mədəniyyəti üçün böyük irs toplanıb. Fəlsəfə mənim həyatın, varlığın, insanın mənası haqqında düşüncələrimə qida verdiyi üçün məni cəzb eləyir.

**I aparıcı:** Biz Əlisa Nicatın orijinal şeirləri, gözəl, mənalı hekayələri maraqlı müasir və tarixi povest və romanları, misilsiz pritçaları (o, ədəbiyyatımızda bu janrın banisidir) və kəskin, zəngin publisistikasından ayrı-ayrılıqda bəhs etmir, onların bədii və fəlsəfi məzmunundan geniş danışmırıq. Çünki bu, mütəxəssislərin və gələcək doktorluq dissertasiyalarının işidir. Çünki Əlisa Nicatın zəngin yaradıcılığı çoxdan onun Mirzə Fətəli Axundov, Mirzə Ələklbər Sabir və Mirzə Cəlil kimi çox vaxt tərbiyələndirməyə çalışdığı Azərbaycan xalqının sərvətidir.

**II aparıcı**: 1999-cu il aprelin 28-də AMEA-nın Bəhmənyar adına Fəlsəfə və Hüquq institutunun elmi şurasının qərarı ilə Əlisa Nicata səmərəli elmi və elmi-maarif fəaliyyətinə görə Fəlsəfə elmləri üzrə Fəxri Doktor adı verilir. Əlisa Nicat təkcə fəlsəfə tarixini araşdıran bir alim deyil, fələfi düşüncələri ilə düşüncələrimizə yön verən bir dahidir. Onun yazmış olduğu min səhifədən çox olan və bəşəriyyətin 2500 illik fəlsəfi fikir tarixini ehtiva edən "Müdriklik məbədi" fəlsəfəsi əsəri ilə onu həmin məbədin memarı adlandırmaq olar.

**I aparıcı:** Əlisa Nicata görə millət bir orqanizmdir, onun hansı hissəsinə toxunsan dərhal bütün hissələrə informasiya çatır, hamı reaksiya verir və köməyə gəlir, onlar arasında gözəgörünməz tellər olur, haqsızlıq baş verdiyi təqdirdə laqeydlik və biganəlik göstərilmir. Yəni Əlisa Nicata görə millət bir tamdır, onun bütün üzvləri vəhdətdədir. İnsanın ilk qorxusu totalitar rejimlərlə, onların gizli, amansız repressiv aparatının yaranması ilə başladı. Dünyada insandan başqa həqiqəti danan bir məxluq yoxdur, əgər həmin məxluqlar hakimiyyəti təmsil edirlərsə, bu həyat üçün faciədir.

**II aparıcı:** Qocalığın sahilində
İllər boyu tənhalıqdan
Sakitlikdən ləzzət alıb
Zülm dolu, zalım dolu
Dövranları yola salıb,
Gəlib çatdıq qocalığın
Çiçəklənən sahilinə.

**I aparıcı:** 80 yaşını haqlayan dəyərli ustad bu gün özünün yazdığı şeirdə qeyd etdiyi kimi qocalığın çiçəklənən sahilindədir. Müdriklər ən dəyərli əsərlərini məhz bu çağlarda yaradır. Gənclik dövründə yaşadığı dönəmin təlatümləri səbəbindən Əlisa Nicatın yaradıcılığının ən parlaq dövrü son onilliklərə məxsusdur.

**II aparıcı:** Dünyada ilk qədəmlərimizi atarkən doğulduğumuz torpağın adı bizim hələ sadə, təfəkkürümüzdə Vətən mənasındadır. Sonra bu ad məktəb dəftərimizin üstünə yazılır, məktublarımızın üstündə bir ünvan kimi dünyanı dolaşır. Daha sonralar ömür pasportumuza yazılaraq bütün həyat boyunca bizimlə birgə yaşayır. Əlisa Nicat da ədəbiyyatımıza, poeziyamıza öz imzası, adı, soyadı ilə yazıldı. Şanla-sanballa yazılan bu imza poeziyamıza silinməz möhür vurdu və daha neçə-neçə əsərlər yazıldıqca da, vurulacaq...

**I aparıcı:** Dərin və geniş idraka, yüksək bədii təfəkkürə və zövqə, incə estetik duyuma malik sənətkarın yaradıcılığına bu qayğı-millətimizin gələcəyinə qoyulan kapitaldır. Deməli millətimiz yaşayacaq və inkişaf edəcək. Digər müasirlərimiz kimi Əlinisa Nicatın da əsərləri hörmətli oxucularımız üçün dəyərli töhfə olacağına əminik. Mənəvi sərvətimizin sanballı incilərindən olan böyük vətəndaş-şair-yazıçı, publisist,

tərcüməçi, tədqiqatçı, filosof Əlisa Nicata möhkəm can sağlığı və yeni-yeni uğurlar arzusu ilə:

**II aparıcı:** Qoy ilham pəriniz sizi müjdələsin yeni-yeni şeirlərlə, pıçıdayaraq qulağınıza misraları, bəndləri. Tanrı sizi və sizin simanızda neçə-neçə türk dili mücahidlərini qorusun.

Söz xəzinəm tükənməyib,
Hələ hünər qabaqdadır.
Neçə povest, ya hekayə,
Neçə əsər qabaqdadır.
Yağsa da qar, yağış dolu,
Hələ ürək ümid dolu.
Keçməliyəm böyük yolu,
Sevinc, kədər qabaqdadır.

**ƏSƏRLƏRİ**

## Latın qrafikası ilə

**Əsərləri.** 24 cilddə. I cild : şeirlər. – B.: Adiloğlu, 2009. – 396 s.

**Əsərləri.** 24 cilddə. IV cild : roman və povestlər. - Bakı : Adiloğlu, 2010. - 320 s.

**Bülbül və gül** : povest. - Bakı : 2003. - 87 s.

**Dünya sərkərdələri**. - Bakı : Çıraq, 2006. - 314 s.

**Leytenant rütbəsində General**. - Bakı : Adiloğlu, 2012. - 120 s.

**Müdriklik məbədi** : bioqrafik məlumat. - Bakı : Nərgiz, 2005. - 1108 s.

**Sarsılmaz Mir Cəfər** : roman və povest. - Bakı : Çıraq, 2009. - 272 s.

**Şah İsmayıl.** - Bakı : Gənclik, 1994. - 16 s.

**Tarixin qürubu** : publisistika. - Bakı : Adiloğlu, 2009. - 656 s.

**Tiranlar və kölələr** : poeziya. - Bakı : Nərgiz, 2004. - 356 s.

## Kiril qrafikası ilə

**Aforizmlər və müdrik nəsihətlər**. - Bakı : Azərnəşr, 1991. - 72 s.

**Bir qız üç çinar** : hekayələr. - Bakı : Gənclik, 1973. - 94 s.

**Çənlibel** : şeirlər və poemalar. - Bakı : Gənclik, 1971. - 167 s.

**Dünya fəlsəfi irsindən yarpaqlar**. - Bakı : Azərnəşr, 1991. - 167 s.

**Gəncəli müdrik**. - Bakı : Yazıçı, 1990. - 264 s.

**Qızılbaşlar** : roman - Bakı : Azərnəşr, 1993. - 232 s.

**Qəbilə başçısı** : povest və hekayələr. - Bakı : Yazıçı, 1987. – 204s.

**Qırmızı buludlar** : hekayələr və povest . - Bakı : Gənclik, 1977. - 84 s.

**Mirzə Şəfi** : iki hissəli bioqrafik roman. - Bakı : Gənclik, 1984. - 276 s.

**Nağıllara dönən tarix.** - Bakı : Azərnəşr, 1993. - 160 s.

**Nəğməyə dönmüş ömür** : roman və hekayələr. - Bakı : Yazıçı, 1980. - 187 s.

**Tarixin sübh çağı** : məqalələr məcmuəsi. - Bakı : Gənclik, 1982. - 120 s.

# Söz xəzinədarı Əlisa Nicat

(metodik vəsait)

**Kompyuter yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 10
Çapa imzalanmışdır: 10.06.2016
Tirajı: 100
Pulsuz.